# Qaz təsərrüfatı işçiləri peşə bayramlarını qeyd etdilər





Hər il ənənəvi olaraq sentyabrın 20-də rayon qaz təsərrüfatı işçiləri peşə bayramlarını yüksək səviyyədə qeyd edirlər. Təsərrüfatın kollektivi öz peşə bayramlarını ümummilli liderimiz, xalqımızın böyük oğlu Heydər Əliyevin şəhər mərkəzində ucaldılmış möhtəşəm abidəsi önünə tər gül və çiçək dəstələri düzməklə başlayır və görkəmli siyasətçinin əziz xatirəsini yad edir.

Ənənəyə sadiq qalan kollektivin bu ilki bayram tədbirində rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev iştirak etmişdir. Mərasimi açan idarənin rəisi Sübhü Bayramov əvvəlcə təsərrüfatın kollektivini «Azəriqaz» Səhmdar Cəmiyyəti rəhbərliyi və öz adından peşə bayramı münasibətilə təbrik etdi və gələcək işlərində onlara uğurlar arzuladı.

Sübhü Bayramov sonra öz peşə bayramlarını uğurlarla qeyd etdiklərini bildirdi. O, vurğuladı ki, son illər təbii qaz təchizatı müstəqil Azərbaycanın iqtisadiyyatında önəmli yer tutur. Qaz istehsalında aparılmış islahatlar, regionlarda əhalinin təbii qaza olan tələbatının yaxşılaşdırılması ölkə başçısı cənab İlham Əliyevin daim diqqət yetirdiyi sahədir. Bu baxımdan «Regionların sosiial-iqtitsadi inkişafı Dövlət Proqramı» və «Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005—2015-ci illər üzrə) Dövlət Proqramı» çərçivəsində aparılan uğurlu islahatlar, həyata keçirilən bir sıra mühüm tədbirlər nəticəsində əhalinin təbii qaza olan ehtiyacının ödənilməsi üçün əlverişli şərait yaratdı və uzun illərdən bəri yığılıb qalmış problemlər aradan qaldırıldı. Beləliklə, əhaliyə təbii yanacağın verilməsi bərpa olundu. Bu proses həcmcə həm böyük, həm də çətin olsa da, Qəbələ qaz təsərrüfatı tərəfindən uğurla icra edilir.

Rayon qaz istismarı idarəsi öz fəaliyyətini Dövlət Proqramları çərçivəsində qurmağa və əhalinin fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsinə çalışır. Eyni zamanda təbii qazdan səmərəli və məqsədyönlü istifadə olunmasına da üstünlük veririk. Buna görə də uğurlarımız ilbəil artır, əhalinin təbii qaza olan ehtiyacını proqnozlaşdırılmış səviyyədə yerinə yetiririk.

2013-cü ilin birinci 6 ayı ərzində qaz təchizatında qazandığımız müsbət işlərimiz buna əyani sübutdur. Birinci yarımil ərzində bütün növ istehlakçı qruplar tərəfindən 18.795,8 min kubmetr təbii qaz istehlak edilmişdir. İstehlak edilmiş təbii qazın ümumi dəyərinin 97,2 faizi yığılmışdır. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə xeyli çoxdur. Bu günlərdə Nohurqışlaq kəndində təbii qaz açılışı olmuş və xətt çəkilmiş 476 evə mavi yanacaq verilərək abonentlərin ümumi sayı xeyli artırılmışdır. Eyni zamanda 6 ay ərzində xeyli sayda qaz sayğacı dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur.

Sübhü Bayramov çıxışının sonunda bildirdi ki, payız-qış ayları başlanmışdır. Artıq şaxtalı qış mövsümü başlasa belə abonentlərin təbii qazla təmin edilməsində çətinlik və problemlərin yaranacağı gözlənilmir. Çünki kollektivimiz avqust ayından başlayaraq qış mövsümünə ciddi hazırlaşmağa başlamışdır. Belə ki, mövcud qaz xətlərində təmir-bərpa işləri aparılır. Bundan əlavə respublikamızda təbii qaz istehsalında potensial imkanlar yaranmışdır.

**Fotolar S. Umuyevindir.**

# Ahıllara qayğı lazımdır

BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Bu Qətnamənin prinsiplərinə görə hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qeyd edilir və eyni zmanda 1999-cu il Beynəlxalq Ahıllar ili elan edilmişdir. Azərbaycanda isə 2001-ci il iyun ayının 22-də «Ahıllara sosial xidmət haqqında» Qanun qəbul olunmuşdur. Mövcud Qanuna əsasən ölkəmizdə 70 yaşına çatmış vətəndaşlar ahıllar sayılır.

Qeyd olunmalıdır ki, Beynəlxalq Ahıllar Gününün keçirilməsində əsas məqsəd ahıl vətəndaşların problemləri ilə yaxından tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək əməli tədbirlər görməkdən ibarətdir.

Bu sahədə rayon ağsaqqalar şurasının, əmək və əhalinin sosial müdafiəsi mərkəzinin hər il həyata keçirdikləri tədbirlər müsbət qiymətləndirilməlidir. Çünki, ağsaqqallar şurası üzvləri və mərkəz öz fəaliyyətlərini tək və ahıl insanlara evdə sosial xidmətin təşkilinə istiqamətləndiriblər. Ümumilikdə hazırda rayon üzrə 70-ə yaxın tək ahıl vətəndaşlar yaşayır. Həm ağsaqqallar şurası, həm də mərkəzin əməkdaşları ahılların evlərinə gedir, onların hər bir problemi, gündəlik qayğısı ilə tanış olurlar. Həmçinin onlar tək ahıl insanlara həm mənəvi, həm də maddi cəhətdən dəstək verirlər. Ahıl insanların sanatoriya və müalicə ocaqlarına göndərilməsini təşkil edir. Bundan əlavə ahıl insanlar üçün tarixi və dini bayramlarda bayram süfrələri hazırlayır, müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirirlər.

# Məntəqə seçiciləri gözləyir

Oktyabrın 9-da keçiriləcək prezident seçkilərinin azad, ədalətli, demokratik keçirilməsi üçün şəhər 5 saylı seçki məntəqəsində də ciddi hazırlıq işləri görülmüşdür. Xatırladaq ki, rayon icra hakimiyyətinin təşkilatçılığı və şəhər icra nümayəndəliyinini dəstəyi ilə məntəqə gərəkli avadanlıq və inventarlarla təchiz edilmişdir. Bu da məntəqənin normal işləməsinə şərait yaratmışdır. Məntəqə şəhər 3 saylı uşaq bağçasının binasında yerləşir. İlk növbədə seçki məntəqəsinin həyətində yaradılmış səliqə-sahman, zövqlə rənglənmiş qapılar, yola yeni döşənmiş asfalt, təşviqat lövhəsi diqqətimizi cəlb etdi. Bu lövhədə prezidentliyə namizədlərin təbliğat materialları yerləşdirilmişdir. 1480 nəfər seçicisi olan bu məntəqənin sədri Şahsoltan Şəkərxanov 1995-ci ildən seçkilərin təşkilində və keçirilməsində fəal iştirak edir. Bu sahədə kifayət qədər təcrübəyə malik olması və seçki qanunvericiliyini dərindən bilməsi onun üçün heç bir çətinlik yaratmır.

Söhbət zamanı Şahsoltan Şəkərxanov qeyd etdi ki, 41 nəfər ilk dəfə səsvermə hüququna malik olanlardır. Məhərrəm Şəkərxanov, Qurban Ziyadov və Zeyəddin Yusifov məntəqənin ən yaşlı seçiciləri sayılır. Onlar deyirlər ki, ömür vəfa etsə, inşallah, xalqımızın ən ləyaqətli namizədinə səs verəcəklər.

Məntəqə sədri onu da əlavə etdi ki, məntəqə seçki ilə bağlı bütün lazımi vəsaitlərlə, yeni təlimatlarla və hüquqi sənədlərlə təmin olunmuşdur. 6 nəfərdən ibarət məntəqə seçki komissiyasının üzvləri arasında iş bölgüsü aparılmış və növbətçilər ayrılmışdır. Bundan əlavə məntəqə seçki komissiyasının üzvləri toplantılar keçirir. Müəyyən məsələlərin müzakirəsi zamanı ortaya çıxan bəzi anlaşılmazlıqlar birgə səy nəticəsində aradan qaldırılır. Aşkarlığa və şəffalığa xüsusi diqqət yetirilir. Məqsədimiz Azərbaycan Respublikasının seçki məcəlləsinin tələblərinə və Mərkəzi Seçki Komissiyasının qərarlarına düzgün riayət etməkdir. Onu da deməyi lazım bilirəm ki, məntəqə üzvlərinin sərbəst işləməsinə şərait var, rabitə əlaqələri yaradılıb, işıq sistemi fasiləsiz təchiz olunub, texniki-təchizat işləri başa çatdırılıb və veb-kamera quraşdırılıb. Seçici siyahılarının dəqiqləşdirilməsində Qəbələ şəhər inzibati ərazi nümayəndəliyinin bizə çox köməyi olub. Hazırda seçicilərin bildirişlərini ünvanlarına çatdırmağa başlamışıq.

Öyrəndik ki, məntəqədə seçki komissiyasının işinin nümunəvi təşkilində məntəqədə katib kimi fəaliyyət göstərən təcrübəli Şahin Cəfərovun, Xeyrəddin Cabbarovun və üzvləri Rəzi Seyidovun, Aybəniz Xurşudovanın, Bədrəddin Süleymanovun da xidmətləri çoxdur. Adı çəkilən məntəqənin əməkdaşları vaxtaşırı seçicilərin, xüsusilə gənclərin maarifləndirilməsi işlərinin təşkili sahəsində tədbirlər həyata keçirir, lövhələrin hazırlanmasında, müvafiq yerlərdə yerləşdirilməsində, seçki ilə bağlı təlimatların məntəqədəki lövhələrdə yerləşdirilməsində onların əməyi var.

Ümidvarıq ki, 5 saylı seçki məntəqəsinin seçiciləri qarşıdan gələn prezident seçkilərində yekdilliklə iştirak edərək, öz iradələrini nümayiş etdirəcəklər.

**Səhifənin materiallarını çapa Aslan CƏLİLOV hazırlamışdır.**